

# Xəlil YUSİFLİ

Amansız ölüm görkəmli nizamişünas alim, Əməkdar elm xadimi, professor Xəlil Yusiflini aramızdan apardı.

Xəlil Həmid oğlu Yusifli 17 iyul 1935-ci ildə Qazax rayonunun Aslanbəyli kəndində anadan olmuş, 1955-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. 1961-ci ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutunda əmək fəaliyyətinə başlamış, 1962-1965-ci illərdə institutun ədəbiyyat şöbəsinin aspirantı olmuşdur. 1967-ci ildə namizədlik, 1977-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

Ömrü boyu Nizami Gəncəvinin həyat və yaradıcılığının tədqiqi ilə məşğul olan Xəlil Yusifli 2009-cu ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, 2015-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

X.Yusifli Nizami Gəncəvi ilə yanaşı, Qazi Bürhanəddinin, Vidadinin, Vaqifin, Seyid Əzim Şirvaninin, Sabirin, Zakirin, Hadinin əsərlərini də tədqiq etmiş, dəyərli monoqrafiyaları ilə ədəbiyyatşünaslıq elmimizi zənginləşdirmişdir. Görkəmli alim uzun illər AMEA-nın Gəncə şəhərindəki Nizami Gəncəvi Mərkəzinin direktoru vəzifəsində çalışmış, eyni zamanda Gəncə Dövlət Universitetində dərs demişdir.

Səmimi insan, böyük pedaqoq, əsl ədəbiyyat xadimi Xəlil Yusiflinin işıqlı xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**